

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 6 (24.143)

*13 yanvar 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın müdafiə nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də İtaliya Respublikasının müdafiə naziri Quido Krosettonu qəbul edib.

Prezident İlham Əliyev strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-İtaliya ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini bildirərək, bu baxımdan yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı, özünün İtaliyaya son səfərini məmnunluqla qeyd etdi.

Dövlətimizin başçısı İtaliya Respublikası Nazirlər Şurasının yeni Sədri Ciorcia Meloniyə təbrik məktubu göndərdiyini xatırlayaraq, yeni hökumətin formalaşmasından qısa müddət keçməsinə baxmayaraq, müdafiə naziri səviyyəsində ölkəmizə səfərin həyata keçirilməsinin əlaqələrimizin yaxşı göstəricisi olduğunu qeyd etdi və əminliyini bildirdi ki, yeni hökumətlə Azərbaycan arasında əməkdaşlıq uğurlu olacaq.

Romanın tarixi rayonunda Azərbaycan səfirliyinin yeni binasının açılışında ilk tədbirin ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasiminə həsr olunduğunu xatırladan Prezident İlham Əliyev İtaliya-Azərbaycan Universitetinin Azərbaycandakı binasının inşasının yekunlaşmaq üzrə olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycan-NATO və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin genişlənməsində İtaliyanın verdiyi töhfəni yüksək qiymətləndirərək qeyd etdi ki, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində uğurlu əməkdaşlıq aparılır. Prezident İlham Əliyev bu baxımdan Cənub Qaz Dəhlizinin səmərəli fəaliyyətini vurğuladı. Prezident İlham Əliyev Quido Krosettonun Azərbaycana səfərinin həm ölkələrimizin aidiyyəti qurumları arasında, həm də daha geniş mənada əməkdaşlığın möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi, ikitərəfli münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə ümidvarlığını ifadə etdi.

Prezident İlham Əliyev ilə görüşdən şərəf duyduğunu bildirən Quido Krosetto, ilk növbədə, İtaliya Prezidenti Sercio Mattarellanın salamlarını dövlətimizin başçısına çatdırdı və qeyd etdi ki, səfərdən öncə İtaliya Prezidenti ilə görüşü zamanı Sercio Mattarella özünün Azərbaycana, dövlətimizin başçısının isə İtaliyaya səfərini məmnunluqla xatırlayıb və Azərbaycan Prezidenti ilə dostluq əlaqələrinin mövcudluğunu bir daha vurğulayıb.

Dövlətimizin başçısı salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını İtaliya Prezidentinə çatdırmağı xahiş etdi.

Quido Krosetto səfərdən əvvəl, eyni zamanda İtaliya Respublikası Nazirlər Şurasının Sədri Ciorcia Meloni ilə də görüşdüyünü bildirərək qeyd etdi ki, Ciorcia Meloni vurğulayıb ki, İtaliya müdafiə nazirinin ölkəmizə səfəri İtaliya hökumətinin Azərbaycanla əməkdaşlığı daha da genişləndirmək əzmində olduğunu göstərir.

Nazir Quido Krosetto qeyd etdi ki, Azərbaycan Prezidentinin İtaliyaya səfərləri bu ölkədə hər zaman böyük məmnunluqla qarşılanır.

Qonaq Prezident İlham Əliyevin Azərbaycan-NATO və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafında İtaliyanın oynadığı rola verdiyi qiymətə görə minnətdarlığını ifadə etdi.

Quido Krosetto Bakıda gedən inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdığını dedi.

Söhbət zamanı energetika, inşaat, turizm, kənd təsərrüfatı, müdafiə sənayesi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi.

**AZƏRTAC**

## İnformasiya və kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən biridir



İnformasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafına, ictimai həyatına təsiri qaçılmazdır. Onların təsir dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti və bütövlükdə, insanların həyat tərzini əhatə edir. Bu gün insanlar informasiya və kommunikasiya texnologiyalarının verdiyi üstünlüklərdən faydalanırlar. Dünya bazarında elektron ticarətin rolunun artdığı dövrdə informasiya və kommunikasiya texnologiyalarından səmərəli istifadə ölkələr üçün də vacib amilə çevrilib. Çünki bu amil hərtərəfli inkişafa xidmət etməklə bərabər, əhalinin sosial-iqtisadi vəziyyətinə də öz təsirini göstərir. Son illərdə ölkəmizdə informasiya və kommunikasiya texnologiyalarından istifadə sahəsində uğurlar qazanılıb.

Muxtar respublikada kompleks inkişaf tədbirləri informasiya və rabitə sahəsini əhatə edir, bu sahədə ardıcıl tədbirlər görülür. Yaşayış məntəqələrində Yeni Nəsil Telekommunikasiya sistemlərinin istifadəyə verilməsi, istifadəçilərin keyfiyyətli və sürətli internetlə təmin olunması, 4G mobil rabitə operatorunun fəaliyyətinin təşkili, dövlət televiziya və radiosunun internet üzərindən yayımlanması, “Universitet” televiziyasının muxtar respublika ərazisində yayıma başlaması və sair tədbirləri bu sıraya əlavə etmək olar. Muxtar respublikanın 2022-ci ilin yanvar-noyabr aylarının statistikasına nəzər salsaq, görərik ki, informasiya və rabitə xidmətlərinin dəyəri 57 milyon 336 min 700 manat olub. Bu dövr ərzində mobil rabitə xidmətlərinin dəyəri 42 milyon 592 min 500 manat təşkil edib və bir il öncəyə nisbətdə 1,8 faiz artıb.



Ötən il “HUAWEI Technologies Azerbaijan” Məhdud Məsuliyyətli Cəmiyyətinin mühəndisləri tərəfindən rabitəçi mütəxəssislərə seminar keçirilib. Onlar muxtar respublikada təqdim edilən internet xidmətlərinin dayanıqlılığının yeni nəsil texnologiyaları vasitəsilə təmin edilməsi istiqamətində beynəlxalq təcrübələrdə geniş istifadə olunan texnologiyalardan slayd və video-materiallar vasitəsilə rabitəçi-mühəndislərə geniş məlumatlar veriblər. Həmçinin ötən il Naxçıvan Dövlət Universiteti İnformasiya-kommunikasiya texnologiyaları və elektron təhsil şöbəsi, Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının dəstəyi ilə “Ağbulaq” İstirahət Mərkəzində informasiya texnologiyaları üzrə BootCamp layihəsi keçirilib. Bu tədbirin sürətlə dəyişən texnologiyalar dövründə informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadəni öyrətmək baxımından mühüm rolu olub.

Muxtar respublikada informasiya və rabitə sahəsində görülən işlər davam etdirilir.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Muxtar respublikada ev təsərrüfatlarının uçota alınması diqqət mərkəzindədir



Rəsmi statistika hesabatı formalarından biri olan ev təsərrüfatlarının uçotu kitabının ümumi yekunlarından ölkəmizin davamlı sosial-iqtisadi inkişafının təmin edilməsi ilə bağlı müvafiq qərarların qəbulunda, əhalinin milli və sosial mənsubiyyətinin, cins və yaş tərkibinin müəyyən edilməsində, mövcud torpaq sahələrindən istifadə vəziyyətinin öyrənilməsində, təsərrüfata məxsus yaşayış evləri və digər tikililər, heyvanlar, quşlar, eləcə də arı ailələri haqqında məlumatların əldə edilməsində və digər məqsədlər üçün istifadə olunur.

Muxtar respublikada ev təsərrüfatlarına dair daha dolğun məlumat əldə etmək məqsədilə 28 dekabr 2022-ci il tarixdə müşavirə keçirilmiş, Mərkəzi Qərargah yaradılmış, Tədbirlər Planı təsdiq edilmişdir. Tədbirlər Planına uyğun olaraq şəhər və rayon icra hakimiyyətləri başçılarının rəhbərliyi ilə 8 yerli qərargah yaradılmışdır.

Cari ilin yanvar ayının 6-da ev təsərrüfatlarının uçotunun aparılması işinin təşkili ilə əlaqədar geniş müşavirə keçirilmiş, təsərrüfatbaşına uçot kitablarının doldurulması işinin təşkili ilə bağlı şəhər və rayon icra hakimiyyətlərinin qarşısında duran vəzifələr izah olunmuş, məsul şəxslər təlimatlandırılmışdır.

Naxçıvan Muxtar Respublikası üzrə ilkin variantı 2016-cı ildə təsdiq edilmiş “Ev təsərrüfatlarının uçotu kitabı”nda olan göstəricilərlə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin təsdiq etdiyi kitab arasında müəyyən fərqliliklərin aradan qaldırılması məqsədilə yeni kitabların çap olunmasına başlanılmışdır.

Sorğunun aparılmasına dair göstərişlər və hazırlanmış slayd işin həyata keçirilməsinə məsul şəxslərin tanış olmaları üçün şəhər və rayon icra hakimiyyətlərinə göndərilmiş, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının müvafiq şöbəsinin əməkdaşının iştirakı ilə seminarlar keçirilmiş və göstərişlər verilmişdir.

Muxtar respublikanın inzibati ərazi dairələrində hər bir ev təsərrüfatı gəzilərək uçotun aparılmasına və əldə olunmuş məlumatların elektron informasiya sisteminə işlənilməsinə başlanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Sosial sahələrin inkişafı üçün yeni perspektivlər yaranır

*Məlum olduğu kimi, yanvarın 10-da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyası keçirilib. Sessiyanın gündəliyində əsas məsələlərdən biri də Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin təsdiq edilməsi ilə bağlı olub.*

Qəbul edilmiş Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsi haqqında Naxçıvan Muxtar Respublikasının Qanununa görə muxtar respublikanın cari il üçün büdcə gəlirləri 132 222 000,0 manat, xərcləri 614 652 500,0 manat təsdiq edilib. Gəlir və xərcləri tənzimləmək üçün ayrılan dotasiya isə 482 430 500,0, o cümlədən mərkəzləşdirilmiş gəlirləri 80 497 000,0 manat, yerli gəlirləri 51 725 000,0 manat, mərkəzləşdirilmiş xərcləri 558 315 500,0, yerli xərcləri isə 56 337 000,0 manat məbləğində təşkil edib.

Naxçıvan Muxtar Respublikasının 2023-cü il üçün büdcəsində sosial sahələrin inkişafı da diqqət mərkəzində saxlanılıb, təhsil sahəsinə 173 133 731,0 manat, səhiyyə sahəsinə 14 465 850,0 manat, sosial müdafiə və sosial təminat üçün isə 60 918 987,0 manat ayrılması nəzərdə tutularaq təsdiq olunub.

**Xəbərlər şöbəsi**

# Böyük nailiyyətlərlə zəngin, xarıbülbül rayihəli, Zəfər rəmzli il...

*Hər dəfə alın açıqlığı, könül rahatlığı ilə müzəffər, qalib xalqın nümayəndələri kimi qazandıqlarımızla, əldə etdiklərimizlə qürur duyaraq, fəxarət hissi ilə dönüb nəzər salacağımız tarixə, mədəniyyətə, milli kimliyə sahiblik, nailiyyətlərlə zəngin, uğurlarla dolu daha bir ili də arxada buraxdıq. Dünyada siyasi qarşıdurmaların, daxili çaxnaşmaların, qızğın müharibələrin, münaqişələrin davam etdiyi 2022-ci il ölkəmizin həyatına müxtəlif sahələr üzrə yeniliklər, yeni siyasi, iqtisadi qələbələr, zəruri sosial islahatlar, hərbi zəfərlər gətirdi, layiqli varisin, qətiyyətli siyasi liderin rəhbərliyi ilə xalqımız aydın sabahlara qədəm qoydu...*



Tariximizin 2022-ci səhifəsində ilk diqqət çəkən mühüm amil ölkə Prezidenti cənab İlham Əliyevin ***“Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır”*** ideyasının növbəti dəfə əyani təsdiqi oldu. Sosial ədalət, sosial rifah prinsipi ilə ilin əvvəlindən etibarən iki milyon yüz min insanı əhatə edən, ümumi həcmi 1,5 milyard olan sosial paket uğurla icra olundu, maaşlar, pensiyalar, təqaüdlər əhəmiyyətli dərəcədə artırıldı, dövlət qulluğu sahəsində çalışanların əməkhaqlarına böyük ölçüdə əlavələr müəyyən edildi, əmək pensiyalarının ortaaylıq məbləği 2021-ci illə müqayisədə 39 manat artırılaraq 371 manata çatdırıldı. Şəhid ailələrinə, qazilərə, müharibə əlillərinə böyük dəstək göstərildi, məişət şəraitləri xeyli yaxşılaşdırıldı, sağlamlığını itirmiş hərbçilər ən müasir protezlərlə təmin edildi, 1500 ailəyə mənzillər verildi, eləcə də bu qəbildən olan insanlara minik avtomobilləri hədiyyə olundu. Təbii ki, bütün bu sosial layihələri həyata keçirmək üçün sarsılmaz, davamlı xarakter alan iqtisadi müstəqillik, qüdrət gərəkdir ki, Azərbaycanda da bu vardır. Bu mənada, 2022 iqtisadi uğurlarla zəngin il kimi də tarixə yazıldı, ölkəmizdə iqtisadiyyat, təxminən, 5 faiz, qeyri-neft sektorunda 9 faizdən çox artdı, ümumi daxili məhsul rekord həddə – 134 milyard manata çatdı. Ölkə rəhbərinin bir neçə il öncə hökumət qarşısında xarici borcla bağlı qoyduğu vəzifə uğurla icra olundu, xarici borc ümumi daxili məhsulun 10 faizinin altına, 9,5 faizə endirildi...

2022-ci ili həm də qəhrəmanlıq, igidlik, vətənpərvərlik rəmzi sayılan qədim mədəniyyət beşiyi Şuşanın adı ilə daim xatırlanacaq, qürurla, fəxrlə anılacaq bir il kimi xarakterizə etmək olar. Cəsur Azərbaycan əsgərinin dünya hərb tarixinə qızıl hərflərlə yeni səhifə yazaraq böyük şücaətlə azad etdiyi Şuşada aprel ayında dosta sevinc, düşmənə gözdağı verən, həqiqət carçısına çevrilən Dünya Azərbaycanlılarının Zəfər qurultayı keçirildi, qədim mədəniyyət mərkəzinin 270 illik yubileyi V Xarıbülbül Beynəlxalq Folklor Festivalı, Vokalçıların Bülbül adına VIII Beynəlxalq müsabiqəsi, “Mediada qlobal trendlər, yeni çağırışlar” mövzusunda Beynəlxalq Media Forumu, Şuşa Türk Biznes Forumu və digər möhtəşəm tədbirlərlə də yüksək səviyyədə qeyd olundu. Müzəffər Ordumuz daha da qüdrətləndi, yeni hərbi birliklər formalaşdırıldı, Azərbaycanla Türkiyə arasında 20-yə yaxın birgə təlim keçirildi, Fərrux, “Qisas”, “Qətiyyətli cavab” hərbi əməliyyatları ilə igid oğullarımız düşmən təxribatına layiqli cavab verdi, əlverişli yüksəkliklər ələ keçirildi, razılaşmaya əsasən Zabux, Sus kəndləri, Laçın şəhəri mənfurlardan təmizləndi, Ali Baş Komandanımız üçrəngli bayrağımızı ucaltdı əzəli-əbədi torpağımız Laçında. Dövlət başçısının ***“Nəticə etibarilə, sentyabrın 13-də bizə qarşı növbəti təxribat törədilərkən Azərbaycan Ordusu cavab verərək düşməni yenə də yerinə oturtdu. Ümid edirəm ki, nəhayət, bu onlara dərs olacaq. Çünki gördülər ki, bizi heç kim və heç nə dayandıra bilməz. Heç kimin zəngi, heç bir bəyanat, heç bir təşəbbüs bizi dayandıra bilməz. Biz öz torpağımızdayıq və öz torpağımızı qoruyuruq. Sərhəd boyunca əldə etdiyimiz mövqelər imkan verir ki, biz istənilən erməni təxribatını qabaqcadan görək və lazımi tədbirlər görək”*** kimi qətiyyətli fikri düşmənə, onun havadarlarına gözdağı verdi, onları yerinə oturdan, həddini göstərən növbəti sərt siyasi mesaj oldu. Azadlığına qovuşan bütün torpaqlarımızda ötən il ölkə rəhbərinin də dəfələrlə bildirdiyi kimi, heç bir beynəlxalq təşkilatdan, qurumdan maliyyə dəstəyi almadan, dövlətimizin öz gücü hesabına aparılan tikinti-quruculuq işləri xeyli sürətləndirildi, tarixi abidələrimiz bərpa olunmağa, mədəni irsimiz yenidən dirçəldilməyə başlandı, Türkiyə-Azərbaycan qardaşlığını, birliyini bütün dünyaya bir daha bəyan edən, siyasi mesajlarla zəngin Zəngilan Beynəlxalq Hava Limanının təntənəli açılış mərasimi keçirildi, rayonun Ağalı yaşayış məntəqəsi “ağıllı kənd”ə çevrildi, Böyük Qayıdışın ilk müjdəsindən nəsibini alan Ağalı sakinləri öz el-obalarına geri döndülər, məktəblərdə zənglər çalındı, güllərlə, yaşıllıqlarla bəzənən küçə-bacalara, həyətlərə uşaqların şən-şaqraq səsləri yayıldı, mədəniyyət ocaqlarında tarın, kamanın, qavalın sədaları ucaldı...

2022-ci il həm də xalq-dövlət, xalq-rəhbər həmrəyliyinin təntənəsinin ildönümü kimi tarixə düşdü. Ölkəmizi, dövlətimizi əbədi qüdrətə, xalqımızı qalibiyyətə aparan Ulu Öndərin ideyalarından güc alan, böyük siyasi qüvvə sayılan Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 ili tamamlandı. Yubiley tədbirində ölkəmizin qazandığı uğurlardan, nailiyyətlərdən ətraflı bəhs edən ölkə Prezidentinin də dediyi kimi: “***Bu gün Yeni Azərbaycan Partiyasının yubileyini qeyd edərkən hər birimiz, şübhəsiz, hər birimiz yenə də Ulu Öndərin xatirəsinə ehtiramımızı ifadə edirik. Çünki illər keçdikcə və dünya dəyişdikcə həmişə hər birimiz çox gözəl bilirik ki, əgər o vaxt Azərbaycan xalqı Heydər Əliyevə müraciət edib onu hakimiyyətə dəvət etməsəydi, ölkəmiz çox böyük fəlakətlə, daha böyük fəlakətlə üzləşə bilərdi”.*** İlin ən önəmli siyasi hadisələrindən biri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşməsi idi. Həmin gün Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə də tanış olan dövlət başçısı görüşdəki dərin məzmunlu nitqində Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının işlənməsi ilə bağlı qarşıya vəzifələr qoyaraq, tarixi ədalətin, həqiqətin bərpasının vacibliyini ön plana çəkərək atılacaq addımlarla bağlı siyasi elitaya mühüm mesajlar verdi: ***“...Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarixboyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır...”*** Ötən il növbəti həmrəylik, birlik, irsə sahiblik, yüksək keyfiyyətə maliklik, əcdadlarımızdan miras qalan mübarizlik nümunəsini yüzlərlə azərbaycanlı fəal gənc Şuşa-Xankəndi yolunda hər hansı təhlükədən, təxribatdan qorxmadan, çəkinmədən ermənilərin vandalizminə, ekoloji terrorizminə, təbii sərvətlərin talanmasına qarşı aksiyalara başlamaqla göstərdi.

***“Zəngəzur dəhlizi artıq reallıqdır. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda beynəlxalq yükdaşımaları üçün yeni bir yol olacaq, beynəlxalq bir yol olacaq...”*** söyləyən dövlətimizin başçısı böyük coğrafiyanı əhatə edən və strateji layihə sayılan dəhlizin açılması uğrunda 2022-ci ildə də dönməz mövqe nümayiş etdirdi, qətiyyət, səriştə ortaya qoydu, fikrini açıq şəkildə əminliklə keçirilən ikitərəfli, üçtərəfli görüşlərdə bəyan etdi, dəhlizin reallaşması məqsədilə ölkəmizə aid ərazidə genişmiqyaslı işlər aparılmağa, dəmir yolları, avtomobil yolları çəkilməyə başlandı. Ölkə rəhbərinin də qeyd etdiyi kimi, 2020-ci ildə döyüş meydanında qazanılan tarixi Qələbəmiz 2022-ci ildə siyasi müstəvidə daha da möhkəmləndi, oktyabr ayında Praqa və Soçi görüşlərində Ermənistan ölkəmizin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıdı. Ötən il iqtisadi inkişafın, siyasi nüfuzun artırılmasında əhəmiyyətli rol oynayan xarici siyasi kursun uğurlu icrası da diqqəti çəkdi, Prezident cənab İlham Əliyev Türkiyəyə, Serbiyaya, Gürcüstana, Özbəkistana, Rusiyaya və digər ölkələrə mühüm xarici səfərlər etdi, böyük iqtisadi irəliləyişlərə, mədəniyyət, təhsil, turizm əlaqələrinin genişlənməsinə yol açan əməkdaşlıqlar quruldu, Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlığa dair memorandum imzalandı. Azərbaycanla Türkiyə arasında 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi təsdiqləndi, Azərbaycan, Türkiyə və Türkmənistan dövlət başçılarının üçtərəfli zirvə görüşü də yaddaqalan siyasi hadisələrdən oldu, ABŞ, Çin ilə intensiv dialoq davam etdirildi, Qoşulmama Hərəkatı çərçivəsində fəal uğurlu siyasət həyata keçirildi, Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrlə fəal qarşılıqlı fəaliyyət aparıldı, NATO ilə əməkdaşlıqda strateji əhəmiyyət saxlanıldı, 69 ölkə ilə diplomatik danışıqların 30, iki ölkə ilə isə 25 illiyi qeyd olundu...

Ölkə başçısının ***“Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik”*** qənaəti 2022-ci ilə də öz möhürünü vurdu, aparılan daxili siyasətdə, reallaşdırılan kadr islahatlarında, dövlət idarəçiliyinin təkmilləşdirilməsi prosesində də özünün əyani təzahürünü müfəssəl şəkildə tapdı. 2022-ci il dekabrın 22-də işğaldan azad olunan Qarabağ regionundan sonra Naxçıvan Muxtar Respublikasında da dövlət idarəçiliyi sistemində yeni mərhələyə keçid bu qədim diyarın insanları, ictimaiyyət nümayəndələri, ziyalıları tərəfindən böyük rəğbətlə qarşılandı. Dövlət başçısının müvafiq fərmanları ilə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi təsis olundu və Fuad Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edildi. Səlahiyyətli nümayəndəni təyinatla bağlı qəbul edən ölkə Prezidenti tapşırıq verdi ki, səlahiyyətli nümayəndə insanların qayğısına qalınması, korrupsiya, rüşvətxorluqla mübarizə, şəffaflıq, düzgün kadr siyasətinin həyata keçirilməsi, mərkəzi icra orqanları ilə sıx təmasda fəaliyyətlə bağlı bütün səylərini göstərsin. Yeni idarəetmə strukturu əvvəllər mövcud olmuş bir sıra nöqsanların aradan qaldırılmasına, qaranlıq məqamların aydınlığa çıxmasına vəsilə oldu. Qısa zamanda aidiyyəti təşkilatların nümayəndələrinin insanlara qarşı sadə, səmimi rəftarı, vətəndaşları qəbul edərək onların problemləri ilə yaxından maraqlanması, həllinə baxılması sakinlər tərəfindən yüksək qiymətləndirilir. Prezident təmsilçisinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramını insanlarla bir arada qeyd etməsi, naxçıvanlılara xitabən “Arxayın olun, hər şey yaxşı olacaq” deməsi ölkə başçısının tapşırıq və tövsiyələrinin düzgün yerinə yetiriləcəyinə böyük əminlik, inam hissləri yaradıb. Aparılan islahatlar çərçivəsində Fuad Nəcəflinin Real Televiziyasına verdiyi müsahibədə söylədiyi “Naxçıvanda kiminsə kefinə görə tətbiq edilən qadağalar ləğv olunacaq” prinsipiallığı da artıq əməli təsdiqini tapmaqdadır. Nümunə üçün ictimai nəzarətin gücləndirilməsini, sərnişin nəqliyyatında gediş haqqının yenidən tənzimlənməsini, ticarət mərkəzlərində alınmış mallara görə ƏDV-lərin alıcılara geri qaytarılmasını, inhisarçılıq hallarının yavaş-yavaş aradan qaldırılmasını qeyd etmək olar...

Bax beləcə, sadaladığımız və sadalaya bilmədiyimiz nailiyyətlərlə, uğurlarla dolu, xarıbülbül rayihəli, Zəfər rəmzli “Şuşa ili”ni arxada buraxıb, ölkəmizi bugünkü qüdrətə, xalqımızı müzəffərliyə qovuşduran əbədiyaşar Ümummilli Liderimizin 100 illik yubileyini möhtəşəm şəkildə qeyd edəcəyimiz “Heydər Əliyev İli”nə qədəm qoyduq. Dahi şəxsiyyətin adıyla bağlanan 2023-cü ilin ölkəmiz, xalqımız, hər birimiz üçün daha uğurlu, daha düşərli olması diləyi ilə...

**✍ Nail ƏSGƏROV**

---

*Əfsanəyə dönən ömürlər*

## Vətənim demək azdır, Vətənin olmaq gərək

### *Bir şəhid qızının dilindən*

Mən Vətən müharibəsi şəhidi Zülal Mədətlinin qızıyam. Adım Dənizdir. Qardaşım Rəhimlə mən atamızı hamıdan çox sevirdik. O da bizi sevirdi. Hər gün işdən evə qayıdanda bizə nə istəsək, alardı. Tez-tez şəhərə də apardı bizi. Bir dəfə qış idi, atam Şəhidlər xiyabanına apardı, dedi ki, orada igid oğullar yatır. Onlar Vətənimizi qoruyanlardır, şəhid olublar. Biz həmin gün Şəhidlər xiyabanını ziyarət etdik. Atam dedi ki, xoşbəxt insandırlar bu oğullardır ki ən yüksək zirvəyə yüksəliblər, bizə də qismət olar, inşallah. Atam elə deyəndə anam ağladı. Yaz gəldi, bahar şənliyinə də getdik, yayda atamla daha çox vaxt keçirdik. Axı tətil idi. Sentyabr ayında mən ikinci sinfə getdim. Bir gün səhər məktəbə gedəndə gördüm ki, nənəm niyəsə ağlayır. Bir azdan atam gəldi. O hazırlaşıb tez də çıxıb getdi. O, gedəndə evdəki hər kəs ağlayırdı, amma atam gülə-gülə gedirdi, sevinirdi. Aradan bir neçə gün keçdi, hərdən zəng vurub bizimlə danışırdı. Sonra daha zəng gəlmədi. Nənəm həyətə gedir, atamın əkdiyi ağacları oxşayıb elə hey ağlayırdı. Babam xəbərlərə baxır, qələbə qazanırıq, – deyib sevinir, kədərini hamıdan gizlədirdi. Nənəmlə, anama təsəlli verir: “Qoçaq oğlandır, indi ermənin kökünü kəsir”, – deyirdi. Bir gecə kəndin bütün camaatı, qohumlar – hamı bizə yığıldı. Nənəm elə hey ağlayırdı. Hamı düşmənə qarğıyırdı. Səhəri gün həyətimizə bayraq gətirib asdılar, Azərbaycan bayrağı. Bir neçə gün öncə qonşumuz Aqil əmigilin də qapısına asmışdılar. Səhəri gün Aqil əmini də gətirdilər, dedilər ki, şəhid olub Aqil. Bizim həyətə də bayraq asanda bildim ki, atam da bayrağa bürünüb gələcək. Hamı ağlasa da, mən ağlamırdım, bilirdim ki, qəhrəmanlar bayrağa bükülür, onların qapısına bayraq asırlar. Atam demişdi axı şəhidlər xoşbəxtdir. O da xoşbəxt olmuşdu. Gözlərimi yumanda atamı görürdüm, o, yenə də gülürdü. Atam oktyabr ayının 19-da şəhid olmuşdu, 26-da bayrağa bükülüb evimizə “gəlmişdi”. Sonra həmin Şəhidlər xiyabanına getdik. Atamı dəfn etdilər. O qədər adam gəlmişdi ki, oraya. Onda bildim ki, atam niyə şəhidlər xoşbəxtdir, – deyirmiş. Atam artıq iki ildir ki, orada yatır. Mən hər gün gedirəm atamı görməyə, Rəhim də gəlir, başına atamın papağını qoyur. Mən atamın məzarındakı rəsmini silirəm. Bizim təzə evimiz də var, onu atam qəhrəmanlıq etdiyinə görə veriblər bizə. Eyvanından baxanda atamın yatdığı yeri görürəm. Hər səhər yuxudan oyananda və gecələr yatanda atamın yatdığı yerə baxıram. Atama müharibədə göstərdiyi igidliyə görə beş medal, bir də orden verib cənab Prezident. Evimizdə atama muzey düzəltmişik. O muzeydə atamın hərbi forması, saatı, şəkilləri və medalları var. Mən atamla fəxr edirəm. Şəhid atamla, qəhrəman atamla. Onun dostları var, onlardan çoxu qazi olub. Biri gözlərini, biri qolunu, ayağını itirib. Onlar bizə tez-tez gəlirlər, atamın qəhrəmanlığından danışır komandiri Təbriz əmi. Böyüyüm atam haqqında kitab da yazacam. Ömrüm boyunca onunla fəxr edəcəyəm.



Neçə sevgiləri, neçə toyları, neçə sevincləri yarımçıq qoyur müharibələr. Ancaq müharibələrin sonunda qələbə olanda insanları o qədər yandırmır. Çünki bilirlər ki, o qanlar, o canlar hədər yerə qurban getməyiblər. Onlar Vətən üçün canlarından keçdilər, övladlarını isə Vətənə əmanət etdilər. Gün gələcək onlar böyüyəcək, azad, bütöv, qalib Azərbaycanın, igid oğulların övladları olduqları üçün qürur duyacaqlar.

**✍ Ramiyyə ƏKBƏROVA**

*... Babam təhsilli, dünyagörüşlü bir kişi olub. Bəy nəslindən idi. Şərurun bir çox yerlərində torpaq sahələri, meyvə bağları var idi. Yəni imkanlı idi. Hər halda sovetin ilk qurulan illərində Ərəbyengicədən gedib uzaq Peterburqda ali təhsil alıb aqronom olmaq hər oğulun işi deyildi. Naxçıvana qayıdandan sonra o vaxt təsərrüfat məktəbi var idi, əvvəlcə orada müəllim, sonra direktor işləmişdi. Sonra tale onunla elə bir oyun oynadı ki, buralardan birdəfəlik didərgin düşdü, elə Naxçıvan camaatına təqdim etdiyi sovetlərin ilk hədiyyəsi də...*



*Jurnalist araşdırması*

## Bir fotonun izi ilə

### və ya sovetlərin Naxçıvana ilk hədiyyəsinin aqibəti necə oldu?

Şərur rayonunun Yengicə kəndində yaşayan 72 yaşlı ***Mirmusa Seyidov***la söhbətimiz uzun çəkir, babası Əmişbəyin evdə fotoşəklinin olub-olmamasını soruşuruq. Bir fotosu vardı, xrom çəkmələrdə oturmuş vəziyyətdə – o şəkli mən görmüşdüm, – deyir, ancaq indi tapa bilmirəm, bəlkə də, qohumlardan kimsə götürüb, ancaq axtaracam, tapsam, sizə xəbərim çatacaq. Məndə olan Türkiyədəki ailəsinin şəkilləridir, daha doğrusu, qızlarının. Yadımdadır, Hüseyn Azəri gələndə bu fotoşəkilləri özü ilə gətirmişdi.

– Hüseyn Azəri kimdir?

– Əmişbəyin bacanağı. Əgər o olmasaydı, babamın öldü-qaldısından xəbər tutmayacaqdıq. Əslində, onu da burada babamın qohumu kimi çox incidiblər, ancaq Hüseyn Azəri uzun müddət Türkiyədə yaşamalı olsa da, sonra min bir əziyyətlə Naxçıvana qayıda bildi, elə burada da dünyasını dəyişdi...

Hüseyn Azəri haqqında birazdan bəhs edəcəyəm. Amma indi qayıdaq əvvələ, daha dəqiqi, başıbəlalı 30-cu illərə. Ona görə başıbəlalı ki, həmin dövrdə Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da kolxozlaşmanın yayılması və buna qarşı çıxanların təqibə alınması, xalqın ziyalı təbəqəsinin və xanbəy nəslindən olanların repressiyaya məruz qalması Azərbaycan tarixinin ən ağır dövrlərindən birini təşkil edir. Bu elə bir dövr idi ki, yeri gəldi-gəlmədi, günahın oldu, ya olmadı, ən kiçik səhv belə hökumət tərəfindən bağışlanmırdı. Elə Əmişbəy də belə haqsızlıqların birinin qurbanı olmuşdu...

28 iyul 1930-cu il. Katib H.Mahmudovun imzaladığı dekretlə Naxçıvan Sovet Sosialist Respublikasının yaradılmasının 10-cu ildönümü əsl bayram kimi qeyd edilir. Naxçıvan şəhərinin mərkəzi meydanı proletariatın dahi rəhbərinin portretləri ilə bəzədilir, hər tərəfə sovetləşməni təbliğ edən plakatlar asılır. Ayrı-ayrı təşkilatların əmək kollektivləri əllərində qırmızı bayraqlar tribuna önündən keçirlər. Tədbirin ən maraqlı hissəsi isə Rusiya Federasiyası maşınqayıranlarının Naxçıvan əməkçilərinə bayram hədiyyəsi kimi göndərdiyi Xarkov Traktor Zavodunun (XTZ) istehsalı olan üçtəkərli traktor olur. Bu həm də Naxçıvana gətirilən ilk traktor idi. Naxçıvan Təsərrüfat Məktəbinin balansına verilən bu traktoru elə həmin məktəbin direk-



toru Əmişbəy Əfəndizadə işə salaraq tribuna önündə dayanmış rəhbər işçilərin qarşısından təntənə ilə keçir. Alqış sədaları hər tərəfə yayılır. Amma... amma bir həftə sonra məktəbin təcrübə sahəsində traktor nədənsə işə düşmür. Tezliklə Naxçıvan Fövqəladə Komissarlığı bundan xəbər tutur və Əmişbəyi ciddi sorğu-sual edir. Sovet hədiyyəsinə “biganə münasibətin” nəticəsinə görə, hətta onu “sinfi düşmən” kimi də hədələyir. Az sonra isə fövqəladə komissarlıq Əmişbəyə Şərurun Dərvişlər kəndi ərazisində Moskvanın iradəsinə zidd olaraq pambıq əvəzinə buğda əkini aparılmasını irad tutur və bu yöndə araşdırmalara başlayır. Əmişbəy artıq vəziyyətin xoşagəlməz səmtə getdiyini görüb Ərəbyengicəyə gəlir və qohumları ilə halallaşaraq təqiblərdən yaxa qurtarmaq üçün gecə ikən Arazı adlayıb İqdıra qaçır. Ancaq gedərkən həyat yoldaşı Münəvvər xanımdan boşanmağa da vaxt tapır. Münəvvər xanım isə iki balaca qızı Zino və Tacirə ilə bu amansız həyatın çətinlikləri ilə barışmağa məcbur olur. Zino tez dünyasını dəyişir, Tacirə xanım isə Şərurun Yengicə kəndinə ərə gedir. Mirmusa Seyidov da elə Tacirə xanımın (el arasında hamı onu Tacı xala kimi çağırıb) oğludur.

Əmişbəyin buradan getməsi bacanağı Hüseyn Fərəcova da təsir edir. Belə ki, Hüseyn Əmişbəylə çox yaxın münasibətdə, həm də qohum olduğuna görə dövlət qurumlarının nümayəndələri onu da sıxışdırır, sorğu-suala tuturlar. Nəticədə, o da kənddən çıxmağa məcbur qalır və soraqlaşa-soraqlaşa gedib Əmişbəyi Ərzurumda tapır.

Ərəbyengicənin ziyalı, yaşlı sakinlərindən olan Cavad Abdullayev deyir ki, Əmişbəy alitəhsilli, bacarıqlı aqronom olduğuna görə uzun müddət Ərzurumda kənd təsərrüfatı sahəsində çalışıb. Elə Hüseyn Fərəcov da onun yanında işləyib. Amma sovetlərin təqibi burada da onları rahat buraxmır və Əmişbəyin Ərzurumda olduğunu bildikdən sonra günlərin bir günü Çomaxtur kəndindən sovetlərin ələ aldığı bir nəfəri (biz onun ad və soyadını bilirik, ancaq yazmırıq) Əmişbəyi aradan götürmək məqsədilə Ərzuruma göndərirlər. Ancaq Əmişbəy ayıq və dünyagörüşlü insan olduğundan məsələni tez anlayıb onu buradan uzaqlaşdırmağı bacarır, hətta deyilənlərə görə, gətirib sərhəd yaxınlığından yola da salır və indiyə qədər də çoxlarının yaddaşında qalan o məşhur kəlməsini işlədir: Rus qalayı türk qazanını parıldatmaz! Kimsə özünə əziyyət verib dalımca gəlməsin!

Bir müddət sonra artıq Vətənə dönə bilməyəcəklərini anlayan Əmişbəy Nemanzadə (Türkiyədə bu soyadla yaşayır) və Hüseyn Fərəcov (onu isə hər kəs Hüseyn Azəri olaraq tanıyır) taleyin qismətinə boyun əyib elə buradaca ailə həyatı qurub yaşamalı olurlar. Hətta Əmişbəyin İmran və Pərihan adında iki qızı da olur. İmran xanımın həyat yoldaşı Ziya Alkan uzun müddət Ərzurum Universitetinin Kənd təsərrüfatı fakültəsində müəllim işləyir. Hüseyn Fərəcovun isə Türkiyədə ailə həyatı qurduğu Nuriyyə xanımdan övladı olmur. Amma tale onun üzünə başqa cür gülür. Belə ki, 1966-cı ildə o, arvadı Nuriyyə xanımla birgə Naxçıvana qonaq kimi gələ bilir. Qohumlarının dediyinə görə, rəsmi qurumların icazəsinə baxmayaraq, Türkiyədən Ermənistana, oradan isə Naxçıvana gələn Hüseyn Azəri yolboyu bir çox ciddi yoxlamalara məruz qalır. Nəhayət ki, Ərəbyengicədə onları həyat yoldaşı Səkinə xanım, oğlanları Adil, Rəşid, Kamil, qızları Rübabə, Şeyda və Zərri qarşılayır. Bütün kənd camaatı, qohum-tanışlar yenidən onların başına yığışır. Hər kəs sevinir, oturub onlarla dərdləşir. Söhbət Əmişbəyə gəldikdə isə... Hüseyn Azəri onun bir müddət əvvəl vəfat etdiyini söyləyir. Dəfnində Ərzurumun xeyli elm və dövlət adamlarının iştirak etdiyini bildirir. Elə özü ilə gətirdiyi Əmişbəyin qızlarına aid fotoşəkilləri də çıxarıb qohumlarına verir.



Bir ay qaldıqdan sonra Hüseyn Azəri Türkiyəyə geri dönmək məcburiyyətində qalır, artıq onlara verilmiş vaxt tamam olurdu. Hə, bir də buradan gedərkən özü ilə bir az kəndin torpağından götürür... Əmişbəy Nemanzadənin Ərzurum-Xorasan yolunun kənarındakı qəbiristanlıqda yerləşən məzarının üstünə səpmək üçün...

Lakin tale Hüseyn Azəriyə başqa bir “sürpriz” də hazırlamışdı. Ərzuruma qayıtdıqdan bir müddət sonra Nuriyyə xanım dünyasını dəyişir. Əmişbəyin və həyat yoldaşının vəfatından sonra heç yerdə özünə yer tapa bilməyən və artıq yaşlaşmış Hüseyn Fərəcov yenidən Naxçıvana dönmək üçün Türkiyədəki rəsmi qurumlara, Rusiya səfirliyinə məktublar yazmağa başlayır. Və nəhayət, müsbət cavab ala bilir... Lakin Ərəbyengicəyə qayıtdıqdan qısa müddət sonra burada dünyasını dəyişir. Elə kənd qəbiristanlığında da dəfn olunur. Başdaşının üzərində isə elə bu cür yazılır: “Fərəcov Hüseyn Azəri 1890-1972”.

... Naxçıvana gətirilən ilk traktorun “taleyi” də ürəkaçan olmur. Bir müddət təsərrüfat işlərində istifadə olunduqdan sonra traktor uzun illər Naxçıvan Elmi Bazasının yardımçı təsərrüfat sahəsində açıq havada qalır. Sonrakı illərdə isə MTS-in darvazası qarşısına qoyulur. Naxçıvan Muxtar Respublikasının 50 illik yubileyi qeyd olunanda isə həmin traktoru təmizləyib, rəngləyib muzeyə (indiki Heydər Əliyev Muzeyinin binasına, xalq təsərrüfatı nailiyyətləri sərgisi də ola bilər) gətirirlər. Sonra isə ötən əsrin 90-cı illərinədək traktor keçmiş Naxçıvan Dövlət Tarix-Diyarşünaslıq Muzeyinin həyətində (indiki Naxçıvanşünaslıq Mərkəzi ilə üzbəüz) saxlanılır. Sonra isə bu başıbəlalı traktor oradan birdəfəlik yoxa çıxır... və “Tarixin yaddaşı” kitabının müəllifi mərhum Feyruz Bağırovun yazdığına görə, elə həmin illərdə traktor işbazlar tərəfindən “metallom” adı ilə İrana satılır. Müəllifin dili ilə desək: “Hazırda həmin traktor İran İslam Respublikasının Xorasan ostanının Məşhəd şəhərinə gedən turistləri Gülab zavodu darvazasının yanında nikbinliklə “salamlayır”. Bizə isə sovetlərin bu ilk hədiyyəsinə yalnız fotolarda baxmaq qalır. Heydər Əliyev Muzeyində saxlanılan fotoşəkli deyirəm...

Səbuhi HƏSƏNOV

---



*Bu yaxınlarda ölkə başçısı cənab İlham Əliyev Qərbi Azərbaycandan olan ziyalılarla görüşündə Vətənimizin bu regionu ilə bağlı maraqlı açıqlamalar verdi. Dövlət başçısı qeyd etdi ki, **“Qarabağ və Şərqi Zəngəzurun işğalı növbəti faciəmiz idi. Yəni görün, təkcə XX əsrdə xalqımız nə qədər böyük bəlalarla üzləşmişdir. Ancaq sınmadı, əyilmədi, inamını itirmədi, güc topladı və nəticədə, istədiyinə nail oldu”.***

*Tarixi Azərbaycan torpaqları*

## Aşıq Ələsgər yaradıcılığında Qərbi Azərbaycan sevgisi

Dövlət başçısı bu görüşündə bir daha onu göstərdi ki, tarixi Azərbaycan ərazisi olan Qərbi Azərbaycan heç zaman unudulmamalı və azərbaycanlıların bu dədə-baba torpağına qayıdışı təmin olunmalıdır. Amma hər şeydən öncə, bu gün hər birimiz Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti haqqında məlumatlı olmalı, bu yurd yerlərimizi daha yaxından tanımalıyıq. Bununla yanaşı, Qərbi Azərbaycan bölgəsi həm də ölkəmizin elmi, mədəni və bir çox sahələrinə tanınmış şəxsiyyətlər bəxş etmişdir. Təkcə elə aşıq ədəbiyyatını götürsək, böyük ustad Aşıq Ələsgərsiz bu ədəbiyyatı təsvir etmək natamam olar.

Aşıq Ələsgəri ədəbiyyatımızda uca edən məqamlardan biri onun daxilində kök salmış Vətən sevgisidir. Onun bu Vətən sevgisi isə Qərbi Azərbaycandan – Türk-Oğuz yurdu olan Göyçə mahalından başlayır. Həyatı boyu yaradıcılığında vətənpərvərliyə, milli və mənəvi dəyərlərin təbliğinə, xalqına bağlılığa, eləcə də doğma yurdunun tərənnümünə xüsusi yer verən böyük ustad bu gözəllikləri dilə gətirdikcə sanki o yerlərdə yenidən doğulur və yaşayır.

Erməni daşnaklarının 1918-ci ildə Göyçə mahalında törətdiyi qırğınlar nəticəsində ailəsi ilə birlikdə el-obasından didərgin düşərək Kəlbəcərin Yanşaq kəndində, daha sonra isə Tərtərdə məskunlaşmasına baxmayaraq, yurd nisgili aşığın ədəbi yaradıcılığında daim ön planda olmuşdur:

*Qırxqız, Alaqaya, Çilgöz, Narışlar,*
*Muroy, Uzunyoxuş, Dəlidağ, Qoşqar!*
*Hansı oğul, deyin, sizi unudar?!*
*Düşərmi el sizdən aralı, yaylaq?!*

Doğma yurdunun təbiətinə vurğunluğunu tez-tez dilə gətirən Dədə Ələsgərin vətənpərvərliyi onun “Dağlar” rədifli qoşmasında özünü qabarıq şəkildə büruzə verir. Bu qoşmada aşıq vaxtilə gəzib-dolandığı, qoynunda xoşbəxt günlər keçirdiyi “qüdrətdən səngərli”, “ağ xalat geyinən”, yaşıl meşələri, gül-çiçəkli çəmənləri, buz kimi bulaqları, səfalı yaylaqları olan dağlardan böyük məhəbbətlə söz açır:

*Ağ xalat bürünər, zərnişan geyməz,*
*Heç kəsi dindirib, xətrinə dəyməz.*
*Sərdara söz deməz, şaha baş əyməz*
*Qüdrətdən səngərli, qalalı dağlar.*

Ümumiyyətlə, Aşıq Ələsgər yaradıcılığından Vətən sevgisi qırmızı xətt kimi keçir. Aşığın istedadı bir tərəfdən İlahidən gəlirsə, digər tərəfdən bu onun təbiət sevdalısı, gözəlliklər vurğunu olmasından qaynaqlanır. Təsadüfi deyildir ki, öz ana təbiətinə, onun gözəlliklərinə məxsus hər şey aşıq üçün qiymətli və əvəzolunmaz idi. Aşıq Ələsgərin yaradıcılığı ilə yaxından tanış olduqca onu incə, həssas qəlbli, sözünün qiymətini bilən bir sənətkar olduğunu görürsən. O, həqiqətən, gözəlliyi duyan, bu mənəvi sərvəti aşiqanə bir dillə vəsf edən şairdir. Yaratdığı əsərləri ilə ruhumuza Vətənin “qüdrətdən səngərli, qalalı dağlarından” ucalıq, dupduru bulaqlarından şəffaflıq və səfalı yaylaqlarından bir sərinlik bəxş edir. Vətənimizin əsrarəngiz təbiətinə həsr olunmuş şeirlərində müəllifin yurdsevərliyi, xalqına bağlılığı qabarıq ifadə olunub. Onun “Yaylaq”, “Gördüm”, “Dağlar” rədifli qoşmalarında bu duyğular daha aşkar görünür. “Yaylaq” qoşmasında yazda el-obanın arandan qalxaraq üz tutduğu səfalı yaylaqlar və seyrəngahlar gözəl poetik dillə tərənnüm edilir:



*Könlüm qaranquştək uçub qoynuna,*
*Gəzir hər yamacı, hər yalı, yaylaq!*
*Ruhum təzələnir, məst olur ürək,*
*Görəndə bu çağı, bu halı, yaylaq!*

Göründüyü kimi, Aşıq Ələsgərin hər deyimində bu Vətənin dağ-daşı, çay-dərəsi, aranı, yaylağı dilə gəlir. Və deyilən hər bir söz, hər bir kəlmə aşığın doğulub-böyüdüyü yurddan başlayıb bütün Azərbaycana yayılır; aşıq öz şeirləri ilə sanki yaşadığı yurd yerinin coğrafiyasını cızır. Bu isə o deməkdir ki, böyük ustad hər zaman qəlbində böyük bir Qərbi Azərbaycan yaşadıb, Vətəninin bu bölgəsində ilk gördüyü dağı, daşı, qayanı, sərin bulaqları poeziyanın dili ilə həm də bizə sevdirib. Şükürlər olsun ki, artıq xalqımız Böyük Qayıdışın astanasına gəlib çatıb. Son iki ilə yaxın bir dövrdə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Aşıq Ələsgərin 200 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması və ustad aşığın Bakı şəhərində heykəlinin ucaldılması bu müqəddəs məqsədə aparan əhəmiyyətli addımlardandır. Ölkə başçısının da dediyi kimi, Qərbi azərbaycanlılar öz ata-baba yurdlarına qayıtmalıdırlar və qayıdacaqlar. Məhz bu qayıdışdan sonra ata-babalarımızın bizə yadigar qoyduqları tarixi irsi biz yenidən bərpa edəcəyik. Məhz o zaman Dədə Ələsgərin də ruhu sevinəcək, könlü qaranquştək uçub doğma yurd yerlərinə qonacaq.

**Aidə İBRAHİMOVA**
***Naxçıvan Dövlət Universitetinin II kurs tələbəsi***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Qədim tarixi-etnoqrafik cizgilərin daşıyıcısı olan dulusçuluq sənəti Ordubadda

*Qədim xalq sənətləri xalqın yaşamını, məişətini ifadə etmək baxımından böyük əhəmiyyət daşıyır. Hər bir xalqa məxsus olan sənət növü onun mənəvi yanaşmasını da özünəxas dərəcədə ifadə edir. Fərqli sənət növlərini müşahidə edərkən onda etnosun qədim düşüncə tərzini aşkarlamaq mümkündür. Bu maddi nümunələrə xalq düşüncəsinin təsiri də danılmazdır. Hər hansı dövrdə tələbat yaranan sənət növünü inkişaf etdirən xalq dərk etdiyi dünyanın cizgilərini bu nümunələrə hopdurmuşdur. Bu baxımdan həmin sənət növləri tarixi əhəmiyyət də daşıyır. Belə sənət növlərindən biri də dulusçuluq sənətidir.*

Xalq yaradıcılığının həm mənəvi, həm də maddi nümunələrini özündə mühafizəkar şəkildə qoruyub saxlayan qədim Ordubad torpağı həm də xalq sənətkarlığının bir çox növlərinin yaranıb inkişaf etdiyi tarixi məkandır. Belə ki, xalq yaradıcılığı sahələrindən olan misgərlik, dəmirçilik, xarratlıq, papaqçılıq, xalçaçılıq, ipəkçilik, dulusçuluq və sair zamanzaman bu ərazidə məkan və coğrafi amillərlə təkmilləşərək inkişaf etmişdir. O cümlədən Ordubadda müxtəlif zamanlarda məşhur dulusçular da fəaliyyət göstərmişlər.

Dulusçuluq sənəti köklü tarixin məhsuludur. Ordubadda bu sənətin tarixi keçən əsrlərlə səsləşir. Yazılı mənbələrdə xanlıqlar dövründə Ordubadda dulusçuluğun inkişafı barədə məlumat vardır. Bu məlumatlara əsaslanaraq demək mümkündür ki, Ordubadda və onun bəzi kəndlərində saxsı qab istehsalı ilə məşğul olmuşlar.

Dulusçuluq sənəti xalq düşüncəsində gizli, sirli sənət də adlanır. Torpaqdan, gildən mükəmməl əşya hazırlaya bilən insan xalqın qədim təsəvvüründə sirlərlə dolu insan, sirli sənət sahibi kimi tanınırdı. Elə bu fikri Ordubad ərazisindən toplanan xalq yaradıcılığı nümunələrində də müşahidə etmək mümkündür. “Şah Abbas və onun sənəti” adlı nağılda nağıl qəhrəmanı öyrəndiyi dulusçuluq sənəti sayəsində düşməndən qurtulur. Düşmən əlində əsir olan qəhrəman düzəltdiyi dulusçuluq məmulatının üzərinə harada əsir düşdüyünü sirli hərflər vasitəsilə həkk edərək öz yaxınlarına göndərir. Bu naxışların hərəsini bir söz kimi oxuya bilən şahın xanımı onu xilas etmək üçün qoşun göndərir, qəhrəmanı xilas edir.

Müasir günümüzə qədər gəlib çıxan bəzi dulusçuluq əşyalarının da üzərində müxtəlif naxışlar həkk edilmişdir. Bəlkə də, hansısa sirli dünyadan xəbər verən bu naxışlar aşkarlanarsa, tarixi əhəmiyyət daşıya bilər.

Azərbaycanın başqa regionları ilə müqayisədə Naxçıvan və onun ərazilərində xanlıqlar dövründə dulusçuluq məmulatlarının istehsalı geniş mövqedə idi. Mənbələrdə mövcud olan məlumata görə, Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı dövründə Naxçıvan və Ordubad şəhərlərinin hər birində 12 nəfər dulusçu çalışırdı. Ordubadda fəaliyyət göstərən, növbənöv saxsı qablar istehsal





edən dulusçu emalatxanalarının sədası qonşu xanlıqlara da yayılmışdı. Tarixi mənbələrdə Ordubaddakı dulusçu emalatxanalarından birinin fəaliyyətdən düşmüş karvansarada yerləşdiyi haqqında məlumata rast gəlmək mümkündür. Hazırda ərazidə mövcud olan Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində qorunub saxlanılan, müxtəlif tarixi dövrlərə aid olan gildən hazırlanan məmulatlar – dulusçuluq məmulatları ərazidə bu sənətin yaranmasının və fəaliyyətinin qədim keçmişindən xəbər verir. Muzeydə islamaqədərki dövrlərə aid olan gildən hazırlanmış küp qəbir Ordubad rayonunun Sabir Dizə kəndindəki ərazidə tədqiqatçı Bəhruz İbrahimov tərəfindən aşkar olunmuşdur. Etnoqrafik məlumatlara əsasən küp qəbirlərə öləni yerləşdirməklə bərabər, çörək və su da qoyardılar. Bu da etnosun o biri aləm-dünya etiqadı ilə bağlı düşüncələrinin ilkin formalarının izləri kimi təzahür edir. Muzeydə, həmçinin saxsı su-boru kəmərinin qalıqları da qorunmaqdadır. Sonrakı dövrlərə əsasən XIX əsrə aid istehsal nümunələri də muzeyin dəyərli eksponatlarındandır. Ziyalı Vilayət Bağırovun verdiyi məlumata görə, muzeydə qorunan küplərin bəzilərindən o dövrdə su, taxıl, pendir saxlamaq, qovurma tədarükü üçün istifadə edilmişdir.

Dulusçuluq məmulatlarından yaxın zamanlara qədər aktiv şəkildə istifadə olunmuşdur. Müasir günümüzdə də, Naxçıvan Muxtar Respublikasının digər regionlarında olduğu kimi, Ordubad rayonunun şəhər və kəndlərində dulusçuluq məmulatlarından turşuların, dənli ərzaq məhsullarının, ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasına xarakterik olan qovurmanın qışa tədarükünü təşkil etmək üçün küplərdən geniş istifadə olunur. Bu qablar həmin ərzaqların həm lazımi şəkildə qorunmasına yararlıdır, həm də sağlamlıq baxımından olduqca əhəmiyyətlidir. Mətbəx qabları arasında dizə, qazança, küvəc, piti dopuları, aşsüzən və həlimdan dadlı və ləzzətli xörəklərin hazırlanmasında istifadə olunmuşdur. Bu qablarda hazırlanan xörəklər xüsusi dada malik olur. Dopuda hazırlanan pitinin, saxsı səhəngdə saxlanan suyun, küpdə tədarük edilən qovurmanın dadından alınan zövq əvəzsizdir.

**Aytən CƏFƏROVA**
*filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Naxçıvan Bölməsinin*
*şöbə müdiri*

# Mülki müdafiədə fiziki sağlamlıq anlayışı

*Sağlamlıq orqanizmin elə bir vəziyyətidir ki, o, bioloji cəhətdən tam keyfiyyətlidir, yəni onların bütün üzvləri və sistemləri normal anatomik-fizioloji xüsusiyyətlərə malikdir. Deməli, sağlamlığın əsas əlaməti xarici mühitin təsirinə asanlıqla uyğunlaşmaq qabiliyyətidir. O, böyük həcmdə psixi və fiziki təsirə yüksək uyğunlaşma qabiliyyətinə malik olur. Bu zaman insan əmək qabiliyyətini tamamilə saxlayır və onda heç bir xəstəlik əlaməti nəzərə çarpmır. Xəstəliklərin baş verməsində rol oynayan xarici amillər aşağıdakı qruplara bölünür:*

***Fiziki amillər.*** Bu amillərə mexaniki zədələnmələr, yüksək və aşağı temperaturlar, şüa enerjisi, elektrik cərəyanı, atmosfer təzyiqinin dəyişkənliyi və sair aiddir.

Mexaniki amillər zərbə, kəsiklər, sıxılma, dartılma, silkələnmə şəklində təsir göstərərək toxumaların əzilməsini, sıyrıqlar, yaralar, sınıqlar, çıxıqlar, sinirlərin parezi və iflici, daxili üzvlərin parçalanmasını, qanaxma və qansızma törədə bilər. Hər bir mexaniki amilin təsiri nəticəsində arterial qan təzyiqinin kəskin şəkildə enməsi, bədənin hərarətinin azalması, tənəffüsün pozulması kimi əlamətlər meydana çıxır. Bu cür əlamətlər xəstədə travmatik şokun baş verməsini sübut edir.

Havanın yüksək temperaturu, xüsusilə yüksək rütubətli və küləksiz hava şəraitində orqanizmin həddən artıq qızması (günvurma) müşahidə olunur.

Aşağı temperatur orqanizmin yerli (donvurma) və ümumi (donma) zədələnmələrinə səbəb ola bilər. Soyuq orqanizmə uzun müddət təsir etdikdə yuxusuzluq, tənəffüsün zəifləməsi, arterial qan təzyiqinin aşağı enməsi, maddələr mübadiləsinin zəifləməsi, şüurun itməsi və baş beyində sinir mərkəzlərinin iflici inkişaf edir.

Şüa enerjisinin xarakterindən asılı olaraq orqanizmdə müxtəlif dəyişikliklər meydana çıxa bilər. Belə ki, Günəşin infraqırmızı şüaları dərinin yanması və beyinin həddən artıq qızmasını (günvurma) törədir.

Radioaktiv maddələr, rentgen şüaları orqanizmə böyük təsir göstərir. Onlar toxumalara ionlaşdırıcı təsir göstərərək fizioloji, biokimyəvi və immunoloji proseslərin gedişini pozur.

Elektrik cərəyanı orqanizmə təsir etdikdə elektrik zədələnməsi meydana çıxır. Bu zaman elektrik cərəyanının gərginliyindən, gücündən, onun xarakterindən, təsir müddətindən, orqanizmdə yayılma yollarından və zədələnmiş şəxsin funksional vəziyyətindən asılı olaraq və ümumi pozğunluqlar meydana çıxır. Elektrik cərəyanı termiki, mexaniki və kimyəvi təsirə malik olduğuna görə dəridə yanıqlar və yaralar əmələ gətirir. Onun ümumi təsiri isə huşun itməsi, tənəffüsün qısamüddətli dayanması, bəzi hallarda isə tənəffüsün iflici, ürəyin dayanması müşahidə edilir və ölüm baş verir.



Atmosfer təzyiqinin dəyişkənliyi orqanizmə əhəmiyyətli dərəcədə təsir göstərir. İnsan yüksək atmosfer təzyiqi şəraitindən normal şəraitə keçdikdə və ya normal atmosfer təzyiqi kəskin endikdə orqanizm təhlükəli vəziyyətə düşür. Bu zaman həll olmuş azot sərbəst qaz qovuqları şəklində xaric olur və onlar ürəkdə, ağciyərlərdə, beyində arterial qan damarlarını sıxaraq qəfil ölümə və ya müxtəlif xarakterli ifliclərin meydana çıxmasına səbəb olur.

***Kimyəvi amillər.*** Kimyəvi maddələr orqanizmin zəhərlənməsinə gətirib çıxara bilir. Bu maddələr zəhər adlanır. Bəzi zəhərlər orqanizmə xaricdən daxil olur (ekzogen zəhərlər). Digərləri isə orqanizmin daxilində yarana bilir (endogen zəhərlər). Endogen zəhərlənmələr və ya autoksikasiyalar böyrək, qaraciyər, bədxassəli şiş və sair xəstəliklər zamanı inkişaf edir.

Zəhərlər qeyri-üzvi və üzvi mənşəli olurlar. Qeyri-üzvi zəhərlərə turşular, qələvilər, qurğuşun, civə, mərgümüş xlor, yod birləşmələri, üzvi maddələrə isə efir, sianidlər və sair aiddir. Üzvi zəhərlər bitki mənşəli (məsələn, alkoloidlər, qlikozidlər və sair) və heyvan mənşəli (ilan və bəzi balıqların zəhərləri) ola bilir.

Kimyəvi zəhərləyici maddələrə, həmçinin zəhərləyici maddələr iprit, fosgen, difosgen, zarın, zoman və sair aiddir.

Zəhərlər seçici və spesifik xarakterə malikdir. Zəhərlər hüceyrənin plazmasına (xlor), qana (dəm qazı), qaraciyər hüceyrələrinə (floridzin), sinir hüceyrələrinə (strixnin, mərgümüş) təsir edə bilir. Onların hər biri mərkəzi sinir sisteminə təsir etməklə həm də orqanizmə ümumi təsir göstərir. Zəhərlərin kiçik dozaları isə müalicəvi təsir göstərə bilir.

***Bioloji amillər.*** Orqanizmə daxil olaraq xəstəlik törədə bilən canlı törədicilər bioloji amillər hesab edilir. Onlara heyvani və bitki parazitləri, viruslar, göbələklər aiddir.

Heyvani parazitlərə qurdlar, gənələr, ibtidai təkhüceyrəli orqanizmlər (məsələn, malyariya plazmodiyaları, spiroxetlər) daxildir. Müxtəlif növ qurdlar (askaridlər, tükbaş qurdlar, trixinlər, enli lentvari qurdlar və sair) qurd xəstəlikləri və ya helmintozlar törədir. Xəstəliklər zamanı onların həyat fəaliyyəti nəticəsində orqanizmdə intoksikasiyanın əlamətləri, yəni arıqlama, qanazlığı, fiziki işgörmə qabiliyyətinin azalması, bəzən ölüm (xüsusilə uşaqlarda ) müşahidə olunur.

Bitki mənşəli parazitlər iki qrupa bölünür: göbələklər və bakteriyalar. Onlar patogen, yəni xəstəlik əmələgətirmə qabiliyyətinə malik olurlar. Digərləri isə qeyri-patogen, yəni zərər verməyən xassəlidirlər.

Patogen göbələklər dəri və dırnaqları zədələyir (dəmrov, epidermofitiya), daxili üzvlərdə xəstəlik əmələ gətirir (aktinomikoz). Epidermofitiya çox vaxt idmançılarda müşahidə olunur.

Xəstəliktörədən mikroblar orqanizmə su, qida, hava və bilavasitə təmas yolu ilə daxil olur. Onlar orqanizmə, həmçinin gənə, ağcaqanad, birələr və sair vasitəsilə düşür.

Viruslar çox xırdaölçülü canlılar olub orqanizmə müxtəlif yollarla daxil olur. İnsanda qızılca, qrip, çiçək və sair xəstəliklər törədir.

***İctimai amillər.*** Xəstəliklərin meydana çıxmasında, yayılmasında ictimai şərait, yəni insanın yaşadığı mühit amillərinin böyük əhəmiyyəti vardır. İşsizlik, ağır əmək və məişət şəraiti, rəzil sanitar mədəniyyəti əsas ictimai amillərdən hesab edilir. Bəzi xəstəliklər ictimai xarakter daşıyır. Məsələn, raxit və vərəm, narkomaniya, sinir sisteminin xəstəlikləri, ruhi xəstəliklər və sair.

***Alimentar səbəblər.*** (yunanca: “alimentos” – qida məhsulları mənasındadır). Qidalanmanın pozulması xəstəliklərin meydana çıxmasında böyük rol oynayır. Qida məhsullarının çatışmazlığı və artıq miqdarda qəbulu, qida rasionunda zülalların, yağların və sulu karbohidratların münasibətinin pozulması, vitaminlərin, mineral maddələrin çatışmazlığı və ya çox olması, qida rejiminin pozulması



xəstəliklərin meydana çıxmasına səbəb olur. Məsələn, həddən artıq miqdarda qida qəbulu piylənməyə və ateroskleroza, şəkərli diabet xəstəliyinin inkişafına səbəb ola bilir, qida rejiminin pozulması (məsələn, kobud, çətin həzm olunan qida, gərgin məşqdən əvvəl və sonra qida qəbulu və sair) mədə və bağırsaq xəstəliklərinə, müxtəlif vitaminlərin çatışmazlığı hipovitaminoza və avitaminoza (sinqa, pellaqra, nevritlər və sair) gətirib çıxara bilər.

**Oktay RZAYEV**
*Naxçıvan Dövlət Universitetinin*
*Çağırışaqədərki hazırlıq və mülki müdafiə*
*kafedrasının dosenti*

# Boccia üzrə şəhər birinciliyi

*Naxçıvan Uşaq Bərpa Mərkəzində 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlar arasında boccia idman növü üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.*



Tədbirin açılış mərasimində çıxış edən Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının Naxçıvan Şəhər Bölməsinin rəhbəri Arzu Zeynalov birinciliyin keçirilməsi məqsədi haqqında geniş məlumat verib, idmançılara uğurlar arzulayıblar.

Şəhər Gənclər və İdman İdarəsi və Paralimpiya Federasiyasının Naxçıvan Şəhər Bölməsinin birgə təşkil etdiyi birincilikdə Zəhra Məmmədova, Aytac Əliyeva və Rəhman Nazarov müvafiq olaraq ilk üç pillədə qərarlaşıblar.

Sonda yer tutan və fərqlənən idmançılara təşkilatçıların diplom və fəxri fərmanları təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

## *İtmişdir*

Kəngərli rayon Çalxanqala kənd sakini Əhmədova Şamama Qaybalı qızının adına olan JN-164B inventar nömrəli, 10800028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Cəfərov Kənan Qürbət oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:* Güntac Şahməmmədli**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1000. Sifariş № 24**